GÜNÜN SİYASİ NƏBZİ

Birinci Qarabağ müharibəsi Azərbaycan xalqının taleyində sağalmaz izlər qoydu. Müharibə zamanı baş vermiş Daşaltı əməliyyatı döyüş meydanındakı fədakarlığın, strateji planlamanın əhəmiyyətini göstərən hadisə kimi yadda qaldı. 1992-ci il yanvarın 25-dən 26-na keçən gecə Azərbaycan Ordusu tərəfindən həyata keçirilən bu əməliyyat Şuşanın müdafiəsi üçün həlledici addımlardan biri idi. Lakin bu əməliyyat həm qəhrəmanlıq dastanı, həm də hərbi taktiki səhvlər nəticəsində baş verən acı məğlubiyyət kimi tariximizdə yer aldı.

Tarixin acı dərsi:

Daşaltı əməliyyatı

Daşaltı kəndi Şuşanın cənub ətəyində, Laçın dəhlizinə yaxın ərazidə yerləşirdi və coğrafi mövqeyi ilə həm Şuşaya gedən təchizat yollarının təhlükəsizliyi, həm də şəhərin müdafiəsi üçün həyati əhəmiyyət daşıyırdı. Ermənistan silahlı qüvvələri bu kəndi dayaq nöqtəsinə çevirərək Şuşaya nəqliyyat vasitələrinin hərəkətini çətinləşdirir, burada yerləşən snayper mövqeləri ilə şəhərə təhlükə yaradırdılar. Azərbaycan hərbi rəhbərliyi bu təhlükəni aradan qaldırmaq məqsədilə Daşaltını azad etmək qərarına gəldi.

Məqsəd Şuşanın müdafiəsini gücləndirmək, Laçın dəhlizinin təhlükəsizliyini təmin etmək və düşmən qüvvələrinin strateji üstünlüyünü zəiflətmək idi. Bu addım yalnız hərbi deyil, həm də psixoloji müharibə kontekstində Azərbaycan xalqına böyük motivasiya verəcəkdi.

Əməliyyata ovaxtkı müdafiə naziri Tacəddin Mehdiyev rəhbərlik edirdi. Planlaşdırmaya əsasən, Nəbilər kəndindən irəliləyən əsas qoşun qüvvələri Daşaltı kəndinə daxil olaraq düşmənin müqavimət nöqtələrini məhv etməli, daha sonra isə Sığnax və Şuşakənd istiqamətində strateji mövqeləri ələ keçirməli idi. Lakin əməliyyatın icrasında ciddi problemlər yaşandı. İddialara görə, əməliyyatın detalları düşmən tərəfə sızdırılmış və erməni qüvvələri hazırlıqlı şəkildə pusqu qurmuşdular. Bölmələr arasında rabitənin qeyri-effektivliyi, əməliyyat sirrinin qorunmaması və coğrafi biliklərin məhdudluğu əsgərlərimizi ağır sınaqla üzüzə qoydu. Bələdçilərin xəyanəti ilə Azərbaycan qoşunları səhv istiqamətə yönləndirildi, bu da bölmələrin düşmən pusqusuna düşməsinə səbəb oldu.

26 yanvar gecəsi Azərbaycan Ordusu Daşaltıya daxil olsa da, ermənilərin hazırladıqları pusqu nəticəsində bölmələrimiz ciddi itki verdi. Rəsmi məlumatlara görə, 90-dan çox hərbi qulluqçumuz şəhid oldu, onlarla əsgər isə itkin düşdü. Bəzi mənbələrdə isə itkilərin daha yüksək olduğu bildirilir. Geri çəkilmək məcburiyyətində qalan qoşunlarımız həmin ərazilərdə döyüş üstünlüyünü itirdi və əməliyyat uğursuzluqla başa çatdı.

Daşaltı əməliyyatı Azərbaycan Ordusunun bölmələrinin formalaşma mərhələsində qarşılaşdığı çətinlikləri və problemləri bir daha üzə çıxardı. Əməliyyatın uğursuzluğu bir neçə əsas faktora bağlı idi: Əməliyyat detallı şəkildə planlaşdırılsa da düşmən qüvvələrinin mövqeləri barədə kəşfiyyat məlumatları yetərli deyildi. Hərbi birləşmələr arasında rabitə əlaqəsi zəif idi və vahid komandanlıq təmin olunmamışdı, hərbi texnikanın məhdudluğu və döyüş sursatının kifayət qədər təmin edilməməsi əsgərləri çətin vəziyyətə saldı; bələdçilərin düşmən tərəfə keçməsi, Azərbaycan bölmələrini səhv istiqamətə yönləndirməsi məğlubiyyətdə ciddi rol oynadı.

Bu məğlubiyyətdən sonra ordunun yenidən təşkilatlanması istiqamətində mühüm addımlar atıldı. 2020-ci ilin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun bölmələri 8 noyabrda Şuşa şəhərini azad edərkən Daşaltı kəndini də düşməndən təmizlədi. Bu tarixi zəfər Daşaltı əməliyyatında şəhid olmuş əsgərlərimizin ruhunu şad etdi və həmin acı günlərin qisası alındı. Bu hadisə həm xalqımızın, həm də ordumuzun gücünü və iradəsini bir daha nümayiş etdirdi.

Daşaltı əməliyyatı tariximizdə acı bir məğlubiyyət kimi yadda qalsa da, eyni zamanda xalqımızın döyüş ruhunu, əsgərlərimizin fədakarlığını və şəhidlərimizin qəhrəmanlığını əks etdirən bir səhifədir. O günlərdəki itkilərimizin ağırlığını, eyni zamanda qürurunu hər bir azərbaycanlı hiss edir. Daşaltı əməliyyatı bizim üçün həm hərbi, həm də milli birlik və həmrəylik baxımından mühüm əhəmiyyət daşıyır.

Bu gün Daşaltı kəndi yenidən qurulur, artıq ora yeni nəfəs gəlir. Bu kənd Azərbaycan xalqının iradəsi və mübarizə ruhunun təcəssümüdür.

Tacir SADIQOV,
"Respublika".